**Təsdiq edilmişdir:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
müavini Samir Şərifov

06.03.2025-ci il

**Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi**

<table>
<tr><th>Sıra №-si</th><th>Görüləcək tədbirlər</th><th>Son icra müddəti</th><th>İcraçı qurumlar</th><th>Məsul şəxslər*</th></tr>
<tr><td colspan="5">1. Müflisləşmə sahəsində normativ-hüquqi bazanın keyfiyyəti</td></tr>
<tr><td>1.1.</td><td>"Sağlamlaşdırma və müflisləşmə haqqında" yeni qanun layihəsinin hazırlanması prosesinin yekunlaşdırılması</td><td rowspan="2">01.06.2025</td><td rowspan="2">Ədliyyə Nazirliyi<br>(Ali Məhkəmə cəlb edilməklə),<br>İqtisadiyyat Nazirliyi<br>(o cümlədən Dövlət Vergi Xidməti),<br>Mərkəzi Bank,<br>Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi,<br>"Biznesin müflisləşməsi" işçi qrupunda təmsil olunan özəl sektor və digər nümayəndələr cəlb olunmaqla<br>("Ernst & Young Holdings (CIS) B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı və digər)</td><td rowspan="2">Səkinə Əliyeva,<br>Teymur Əhmədov,<br>Vüqar Qurbanov<br>Məmməd Balacanov,<br>Anar Muxtarov,<br>Sahil Cəfərov,<br>Səid Musayev,<br>Abbas Abbasov</td></tr>
<tr><td>1.2.</td><td>Müflisləşmə sahəsində məhkəmə işlərinə baxılması qaydasının daha da təkmilləşdirilməsi üçün Mülki Prosessual Məcəllədə dəyişikliklərə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə Komissiyaya təqdim olunması</td></tr>
<tr><td>1.3.</td><td>Mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün sadələşdirilmiş sağlamlaşdırma və iflas prosedurlarının müəyyən edilməsi ilə əlaqədar layihənin hazırlanaraq aidiyyəti üzrə Komissiyaya təqdim olunması</td><td>01.06.2025</td><td>İqtisadiyyat Nazirliyi<br>(o cümlədən Dövlət Vergi Xidməti),<br>Ədliyyə Nazirliyi<br>(Ali Məhkəmə cəlb edilməklə),<br>Mərkəzi Bank,<br>Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi,</td><td>Teymur Əhmədov,<br>Vüqar Qurbanov,<br>Məmməd Balacanov,<br>Səkinə Əliyeva,</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | | | Vəkillər Kollegiyası, “Biznesin müflisləşməsi” işçi qrupunda təmsil olunan özəl sektor və digər nümayəndələr cəlb olunmaqla (“Ernst & Young Holdings (CIS) B.V.” şirkətinin Azərbaycan Respublikasındakı filialı və digər) | Anar Muxtarov, Sahil Cəfərov, Səid Musayev, Abbas Abbasov |
| **2. Müflisləşmə prosedurları üzrə informasiyanın əlçatanlığı** | | | | |
| 2.1. | Beynəlxalq təcrübə nəzərə alınmaqla sağlamlaşdırma və müflisləşmə proseduru üzrə borclunun əmlakının idarə edilməsi ilə bağlı fəaliyyət göstərən ixtisaslaşmış şəxslərin ictimaiyyətə açıq reyestrinin yaradılmasının mümkünlüyü ilə əlaqədar araşdırmaların, təhlillərin aparılması və nəticələri üzrə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.09.2025 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi, Mərkəzi Bank | Teymur Əhmədov, Vüqar Qurbanov, Səkinə Əliyeva, Anar Muxtarov |
| **3. Sərhədlərarası müflisləşmə** | | | | |
| 3.1. | “Biznesin müflisləşməsi” işçi qrupunun təklifləri nəzərə alınmaqla BMT-nin Beynəlxalq Ticarət Qanunvericiliyi Komissiyasının (UNCITRAL) *Sərhədlərarası müflisləşmə* haqqında Model Qanununun qanunvericiliyə implementasiyası ilə bağlı işlərin görülməsi | 01.08.2025 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Mərkəzi Bank, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, “Biznesin müflisləşməsi” işçi qrupunda təmsil olunan özəl sektor və digər nümayəndələr cəlb olunmaqla (“Ernst & Young Holdings (CIS) B.V.” şirkətinin Azərbaycan Respublikasındakı filialı və digər) | Səkinə Əliyeva, Teymur Əhmədov, Vüqar Qurbanov, Məmməd Balacanov, Anar Muxtarov, Sahil Cəfərov |
| **4. Müflisləşmə prosesinin institusional və əməliyyat infrastrukturunun keyfiyyəti: məhkəmələrin (hakimlərin) və vəkillərin ixtisaslaşması və biliklərinin artırılması** | | | | |
| 4.1. | Kommersiya mübahisələrinə baxan hakimlərin müflisləşmə sahəsində bilik və təcrübələrinin artırılması istiqamətində zəruri tədbirlərin görülməsi, o cümlədən təlimlərin keçirilməsinin davam etdirilməsi | Hər rüb | Ədliyyə Nazirliyi (Ədliyyə Akademiyası) (Məhkəmə-Hüquq Şurası cəlb edilməklə) | Şahin Əliyev, Seymur Həmidov |
| 4.2. | Vəkillər üçün müflisləşmə və sağlamlaşdırma ilə bağlı mövzular üzrə təlimlərin keçirilməsi | Hər rüb | Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası | Şahin Əliyev, Nihad Əliyev, Abbas Abbasov |

| | | | | |
|---|---|---|---|---|
| 4.3. | İlkin təlimə cəlb olunan hakimlərin tədris kursunda sağlamlaşdırma və müflisləşmə mövzuları üzrə təlimlərin keçirilməsi | İl ərzində | Ədliyyə Nazirliyi, (Məhkəmə-Hüquq Şurası cəlb edilməklə) | Şahin Əliyev, Seymur Həmidov, Abbas Abbasov |
| 4.4. | Beynəlxalq təcrübə və ekspertlər tərəfindən verilmiş təkliflər nəzərə alınmaqla, müflisləşmə üzrə inzibatçılara müvafiq sahədə sistemli təlimlərin keçirilməsinə dair proqramın hazırlanması və tətbiqi | 01.12.2025 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vəkillər Kollegiyası | Şahin Əliyev, Teymur Əhmədov, Vüqar Qurbanov, Abbas Abbasov |
| **5. Müflisləşmə üzrə icraatın səmərəliliyi: ləğvetmə və ya sağlamlaşdırma üzrə icraatın həlli müddəti və xərclər** | | | | |
| 5.1. | İflas prosesinin əvvəlindən sonunadək proseslər xəritəsinin təhlil olunması, qanunvericilikdə müəyyən edilən və praktikada daha çox rast gəlinən müddətlər, həmçinin xərclərin müqayisəli şəkildə təhlili, hazırlanması və nəticələrinin aidiyyəti üzrə Komissiyaya təqdim edilməsi | 01.06.2025 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), (Ali Məhkəmə cəlb edilməklə), Mərkəzi Bank | Teymur Əhmədov, Vüqar Qurbanov, Səid Musayev, Anar Muxtarov |
| 5.2. | Beynəlxalq təcrübə nəzərə alınmaqla hər mərhələ üzrə müddətlərin və xərclərin azaldılaraq səmərəliliyin artırılması imkanlarının araşdırılması, zərurət olduğu təqdirdə təkliflərin hazırlanaraq aidiyyəti üzrə Komissiyaya təqdim edilməsi | 01.09.2025 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), (Ali Məhkəmə cəlb edilməklə), Mərkəzi Bank | Teymur Əhmədov, Vüqar Qurbanov, Səid Musayev, Anar Muxtarov |
| **6. Dünya Bankı Qrupunun “Business Ready” hesabatının biznes müflisləşməsi indikatorlarına dair görülmüş işlərlə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi** | | | | |
| 6.1. | Vəkillər Kollegiyası ilə birgə vəkillər üçün müflisləşmə və sağlamlaşdırma üzrə maarifləndirmə tədbirlərinin təşkili | Hər rüb | Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Auditor Palatası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, “Biznesin müflisləşməsi” işçi qrupunda təmsil olunan digər qurumlar cəlb | İşçi qrupun üzvləri |
| 6.2. | Dünya Bankı Qrupunun “Business Ready” hesabatı üzrə aparılmış sorğu əsasında görülmüş işlərin müzakirəsi məqsədilə kiçik və orta sahibkarların nümayəndələri ilə dəyirmi masaların keçirilməsi | | | |
| 6.3. | Azərbaycan Respublikası Auditor Palatası ilə birlikdə müflisləşmə və sağlamlaşdırma məsələləri ilə bağlı auditorlar üçün maarifləndirmə tədbirlərinin keçirilməsi | | | |

| | | | | |
|---|---|---|---|---|
| 6.4. | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının iştirakı ilə Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Biznesin müflisləşməsi” indikatoruna dair görülmüş işlər barədə maarifləndirici görüşlərin keçirilməsi | | olunmaqla | |
| 6.5. | Azərbaycanda fəaliyyət göstərən aparıcı hüquq/konsaltinq şirkətlərinin nümayəndələri ilə müflisləşmə və sağlamlaşdırma məsələlərinin müzakirəsi ilə bağlı görüşlərin keçirilməsi | | | |
| **7. Dünya Bankı Qrupunun “Business Ready” hesabatının ”Biznes müflisləşməsi” indikatoru ilə bağlı görüləcək işlərlə bağlı İntensiv Kommunikasiya Planının həyata keçirilməsi** | | | | |
| 7.1. | Özəl sektor nümayəndələrinin, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyalarının təmsilçilərinin müvafiq sahə üzrə ən son yeniliklərlə bağlı məlumatlandırılması üçün Intensiv Kommunikasiya Planının hazırlanaraq Komissiyanın Katibliyi ilə razılaşdırıldıqdan sonra təsdiq olunaraq həyata keçirilməsi | 30.03.2025 (Planın təsdiqi)<br><br>İl ərzində (Planın həyata keçirilməsi) | Ədliyyə Nazirliyi, “Biznesin müflisləşməsi” işçi qrupunda təmsil olunan digər qurumlar cəlb olunmaqla | Qismət Qurbanov, İşçi qrupun üzvləri |

**Qeyd:** Aidiyyəti dövlət qurumları üzrə məsul şəxs qismində adları qeyd olunmuş əməkdaşlar icraçı qurumlar tərəfindən müvafiq tədbirlərin təşkili və icrası zamanı işçi qrupa münasibətdə koordinasiyanı və hesabatlılığı təmin etmək məqsədilə təyin olunmuşdur.